**İşğalçı ölkənin növbəti təxribatına cavab olaraq, ötən ilin payızında başlanmış İkinci Qarabağ savaşı Azərbaycanın tam qələbəsi ilə başa çatdıqdan sonra ölkəmizin bütün dostları bizim haqq işimizi dəstəkləmiş və düşmənin viranəyə çevirdiyi ərazilərimizin bərpasında iştirak etmək istədiklərini bildirmişlər. Litvanın Xarici İşlər naziri Qabrielius Landsbergisin aprelin son günlərində Bakıya səfər etməsi və səfər çərçivəsində "Litva Azərbaycan tərəfindən təklif olunacaq hər cür əməkdaşlığa hazırdır" bəyanatını verməsi, bu dövlətin dostluğa, əməkdaşlığa verdiyi önəmin göstəricisi idi.**



# "Azərbaycan Cənubi Qafqazda Litvanın ən mühüm iqtisadi tərəfdaşıdır"

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan–Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olunub. Dövlətimizin başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırıb.

Söhbət zamanı Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı məsələləri müzakirə edilib və Azərbaycan Respublikası – Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olunub.

Xatırladaq ki, bir il əvvəl – 2020-ci il aprelin 27-də rəsmi Vilnüsün təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə Azərbaycan Prezidenti İlham Əliyevin videobağlantı formatında danışıqları olmuşdu. Dövlət başçıları ikitərəfli münasibətlərə toxunaraq, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, iqtisadi-ticarət əlaqələrinin də bu səviyyəyə qaldırılmasının önəmini qeyd etmiş və pandemiya başa çatdıqdan sonra Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin vacibliyini bildirmişdilər.

Dövlət başçımız həmin görüşdə bildirmişdi ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak etməklə bərabər, Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin inkişafına önəm verir və bu təşkilatın doqquz ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə dair sənədlər imzalamışdır. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələri əhatə edir.

Prezidentlərin söhbətində razılaşdırılmış məsələ – Hökumətlərarası Komissiyanın iclasının keçirilməsi ötən il iyulun 10-da reallaşdırılmışdır. Həmin gün keçirilən Azərbaycan Respublikası hökuməti və Litva Respublikası hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının 6-cı iclasında Azərbaycan tərəfdən Hökumətlərarası Komissiyanın həmsədri, İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın Litva ilə dostluq və tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini qeyd etmiş, dövlət başçılarının siyasi iradəsinin, ölkələrimizin malik olduğu böyük iqtisadi potensialın əməkdaşlığın uğurlu inkişafı üçün əlverişli şərait yaratdığını vurğulamışdı. Nazir iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsinin Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Qitanas Nauseda arasındakı videokonfrans formatında keçirilmiş görüşdə geniş müzakirə edildiyini xüsusilə vurğulamışdır.

Xatırladaq ki, Azərbaycanla Litva arasında müxtəlif sahələrdə 40-a yaxın, o cümlədən, investisiyaların qarşılıqlı qorunması və təşviqi, ikiqat vergitutmanın aradan qaldırılması barədə sənədlər imzalanıb. Ölkəmiz Litva ilə iqtisadi əlaqələrin genişləndirilməsində maraqlıdır. İki ölkə arasında ticarət dövriyyəsi artmaqda davam edir. İnvestisiya, ticarət, kənd təsərrüfatı, energetika, informasiya texnologiyaları, turizm, mədəniyyət və s. sahələrdə qarşılıqlı faydalı əlaqələr qurulub. Maraqlı olan faktlardan biri də odur ki, Azərbaycanın tikinti, ticarət, xidmətlər, bank işi və sığorta sahələrində Litva kapitallı 17 şirkət fəaliyyət göstərir.

Əməkdaşlığımızın tarixçəsinə nəzər salanda görürük ki, Litva Azərbaycanın dövlət müstəqilliyini 1991–ci il dekabrın 21-də tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 1995-ci ilin 27 noyabr tarixində qurulmuşdur. Azərbaycanın Litva Respublikasında səfirliyi 2007-ci ilin sentyabr ayında, Litvanın Azərbaycandakı səfirliyi isə 2007-ci ilin aprelin 3-də açılmışdır. Dövlətlərarası münasibətlərimiz strateji tərəfdaşlıq mərhələsinə qədəm qoymuşdur. Hər iki ölkə başçılarının rəsmi və işgüzar, həmçinin dövlət və hökumət qurumlarının, bələdiyyələrin, işgüzar dairələrin nümayəndələrinin çoxsaylı qarşılıqlı səfərləri baş tutmuşdur. Bunlardan, Litva Respublikasının Baş naziri, Xarici İşlər naziri, Daxili İşlər naziri, Müdafiə naziri, İqtisadiyyat naziri, Nəqliyyat və Kommunikasiya naziri, Seymin vitse-spikerinin başçılığı ilə nümayəndə heyətlərinin Azərbaycana səfərlərini xüsusi qeyd etmək olar.

*(ardı 5-ci səhifədə)*

# "Azərbaycan Cənubi Qafqazda Litvanın ən mühüm iqtisadi tərəfdaşıdır"



*(əvvəli 1-ci səhifədə)*

Litva, həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir. Azərbaycan və Litva prezidentlərinin 2007-ci ildə imzaladığı "Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannamədə" Dağlıq Qarabağ münaqişəsinin "BMT Nizamnaməsinin prinsipləri, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və beynəlxalq hüququn hamılıqla tanınmış normaları, xüsusilə, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, sülh yolu ilə həll edilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Litvaya 1 rəsmi (13–14 sentyabr 2007) və 2 işgüzar səfər (10–11 oktyabr 2007, 29 noyabr 2013) etmişdir. Litva Prezidenti Valdas Adamkusun Azərbaycana 1 rəsmi (8–9 iyun 2006) və 3 işgüzar səfəri (sonuncu 13–14 noyabr 2008) baş tutmuşdur. Prezident Dalya Qribauskayte isə 2–3 may 2011-ci il tarixlərində Azərbaycanda rəsmi səfərdə olmuşdur.

Dövlətlərimiz humanitar sahədə də fəal əməkdaşlığa böyük önəm verir və bu səbəbdən mədəniyyət, tarix, elm, təhsil sahələrində müxtəlif tədbirlər həyata keçirilir. Ali məktəblər arasında mövcud əməkdaşlığın nəticəsində Litva universitetlərində təhsil alan azərbaycanlı tələbələrin sayı hər il artmaqdadır. Avropanın ən qədim universitetlərindən olan Vilnüs Pedaqoji Universitetində böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan auditoriya açılmışdır.

Bundan əlavə, Vilnüs Universitetində auditoriyalardan biri "Azərbaycan" adını daşıyır. Hazırda, Litvanın ali məktəblərində 200-ə yaxın azərbaycanlı tələbə təhsil alır və Litva universitetləri ilə yaradılmış sıx əməkdaşlıq nəticəsində 2014–2016-cı illərdə Litvanın 5 gənc alimi Azərbaycanın qabaqcıl beyin mərkəzlərinin həyata keçirdiyi "Qonaq elmi işçilərin mübadiləsi proqramı"nda iştirak etmişdir.

Sonda litvalı diplomatın ölkəmiz haqqında dilə gətirdiyi fikirlərə nəzər salaq. Cənab Qabrielius Landsbergis azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra mətbuat təmsilçilərinə verdiyi müsahibədə xatırladıb ki, Litva Cənubi Qafqaz ölkələri, o cümlədən, təbii ki, Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır: "Biz bu əlaqələri daha da genişləndirməkdə maraqlıyıq. Biz təkcə iqtisadi sahədə deyil, siyasi müstəvidə də əlaqələri gücləndirmək niyyətindəyik".

Diplomatın fikrincə, regionda sülh və təhlükəsizlik mühüm şərtdir. O, məxsusi olaraq nəzərə çatdırıb ki, Litva Azərbaycan tərəfindən təklif olunacaq hər cür əməkdaşlığa hazırdır. Çünki Azərbaycanla əməkdaşlığı inkişaf etdirmək üçün potensial böyükdür: "Azərbaycan Litvanın Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Litva, eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasında siyasi müstəvidə əməkdaşlığın genişlənməsinin də tərəfdarıdır".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***